*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*
https://doi.org/10.62837/2024.6.521

**HƏŞIMOVA AYNURƏ ABDULLA QIZI**
***AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Qafqaz Albaniyası Memarlıq Abidələri və mənəvi İrsinin tədqiqi sektorunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***aynura.hashimova@mail.ru***

# QAFQAZ ALBANİYASININ ANTİK VƏ İLK ORTA ƏSRLƏRƏ AİD HEYKƏLTARAŞLIQ NÜMUNƏLƏRİ

**Açar sözlər:** Qafqaz Albaniyası, antik dövrlər, qədim abidələr, antik və etnik əşyalar, heykəl fiqurları.

**Ключевые слова:** Кавказская Албания, древние времена, древние памятники, античные и этнические предметы, скульптурные фигуры.

**Key words:** Caucasian lbania, ancient times, ancient monuments, antique and athnic objects, sculptural figures.

**Giriş:**

Qafqaz Albaniyasının mövcudluğu dövründə bir çox tarixi abidələr tikilmişdir ki, müasir dövrümüzə qədər saxlanılaraq Azərbaycan tarixini əks elətdirir. Abidələr ətrafında aparılan qazıntılar zamanı, həmin dövrə aid yaşayış məskənləri də bir çox hallarda aşkarlanır və bu yaşayış məskənlərini öyrəndikcə , həmin dövrün insanlarının yaşam tərzi, xalq adət- ənənləri daha çox aydınlıqla təsəvvür yaradır. Etnik insanların yaşam tərzini öyrənməkdə yardımçı olan, arxeoloji qazıntılar zamanı aşkarlanan qədim dövrə aid edilən əşyalardır. Qədim dövr insanlarının yaşam tərzinin öyrənilməsi, əsasən onların məişətdə işlətdikləri əşyaların tədqiqi zamanı aydın olur. Əcdadlarımızın yaşam tərzinin, dini inaclarının, tarixi hadisələrinin, adət ən-ənələrinin və onları əhatə edən ətraf mühitin öyrənilməsi xalqımız üçün yüksək önəm daşıyır və olduqca maraq yaradır.

Azərbaycan torpaqlarında Alban tarixini əks elətdirən, arxeoloqlar tərəfindən aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan tapıntılar, elm sahəsində geniş məlumat əldə etməkdə yardımçı olmuşdur. Aşkarlanan yaşayış məskənləri və qədim abidələr hal-hazırda da qorunmaqdadır. Qafqaz Albaniyası dövrünün müxtəlif səpgili əşyaları və heykəl fiqurları, elmi araşdırmalar nəticəsində bir çox məlumatları ortama çıxardır. Qax, Qəbələ, Mingəçevir və Şamaxıda tapılmış tapıntılar diqqət mərkəzindədir.

Eramızdan əvvəl dördüncü, üçüncü əsrlərdən başlayaraq Qafqaz Albaniyasında müxtəlif cür daş heykəllərin yaradılmasına xüsusi diqqət olub. Alban heykəltaraşları qadın və kişi heykəllərini düzəldərək, onların üzərində mifoloji süjetlərə aid səhnələri batıq xətlərlə əks elətdirirdilər. Heykəllər sırasında insan fiqurları ilə yanaşı müxtəlif zoomorf fiqurlar da yer tutmaqdadır. Qafqaz Albaniyasına aid edilərək aşkarlanan

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*
tapıntılar içərisində bir çox sayda heykəl fiqurları da var. Qafqaz Albaniyası dövrünə məxsus heykəllər günümüzə qədər aşkar edilməkdədir. Bu cür heykəllər əsasən Qarabağ ərazisindən daha çox tapılıb. Qarabağdan, Ağdam rayonundan qazıntılar zamanı aşkarlanan türk balbalaları adlı daş heykəllər tapılıb. Qafqaz albanları dini inanclarından irəli gələrək, əcdadlarından onlara miras olaraq qalmış daş heykəllərə də sitayiş edirdilər. (4 )

Qafqaz Albaniyasının erkən antik dövrlərinin büdpərəstlik inanclarına aid edilən digər daş heykəllər daş bütlərdir ki, üz nahiyələri sağlam vəziyyətdə qalaraq bizim dövrlə qədər gəlib çatmışdır. Arxeoloji qazıntılar zamanı aşkarlanan bu cür heykəlləri tədqiq etdikcə, müşahidələr zamanı bir çox amillər diqqət çəkir. Qədim dövrlərin heykəltaraşlıq nümunələri, alban sənətkarlarının peşəkarlığını öyrənməkdə yardımçı olur. Belə ki, heykəllərin baş nahiyələri, qədim sənətkarlar tərəfindən ustalıqla işlənərək, onların üz cizgilərinin yaradılmasına xüsusi önəm verilirdi. Bu cür heykəllər, bir çox hallarda, daş bütlər olaraq dini ayinlərdə sitayış obyekti olaraq istifadə edilirdi. Qafqaz Albaniyasının qədim dövrlərinin dini inanclarını araşdırdıqda, bütpərəstlik dövrünün antik və orta əsrlərə qədər davam etdiyi məlum olur. Həmin dövrlərdə daşdan monumental heykəllərlə yanaşı kiçik fiqurlar da yonulurdu. (6. s.3-18)

Məqalədə tədqiq edilən heykəltaraşlıq nümunələri əsasən antik və orta əsrlərə aiddir. Əsasən erkən dövrə aid edilən heykəllərin daşdan düzəldilməsi və onların xüsusi düzəldilmə xüsusiyyətlərinə görə, Qafqaz Albaniyasının antik dövrünün bütpərəstlik inanclarına daha çox aid edilir.

Arxeoloqlar tərəfindən, Qarabağda daşdan yonulmuş 19 insan heykəli qeydə alınmışdır.Bu cür heykəllərin arxeoloji tədqiqatına 1982-ci ildən başlanılmışdır. Bu cür tapıntılarla bağlı bir çox elmi məqalələr çap edilmişdir. Dünya ictimaiyyətinin diqqətini çəkən qədim dövrlərdən qalan tapıntılar, eləcə də daş heykəllər, dünya alimlərinin və arxeoloqların daim diqqəti mərkəzində olub. Bu abidələr Mollalar, Şəfibəyli, Suma, Güllücə (Ağdam rayonu), Şatırlı (Bərdə rayonu), Canyataq (Ağdərə rayonu), Seysulan (Tərtər rayonu) kəndləri yaxınlığında aşkar edilmişdir. Bu heykəltaraşlıq abidələri qədim zamanlarda Qarabağın dağlıq və düzənlik hissələrinin vahid etno-mədəni məkana daxil olduqlarını təsdiq edir. Bu cür daş heykəllər Avroasiyada yaşayan türk xalqları arasında ” Türk balbalası” adı ilə adlandırılmışdır. Türk tarixində bu cür balbala heykəllər türk xalqının qədim ənənəsi olaraq göstərilib. Türk xalqının qədim əcdadları ”Balbala” heykəllərinin adının baba adından götürüblər. (2)

Əsrlər boyunca Azərbaycan torpaqlarına, xalqımızın milli sərvətlərinə həsəd aparan düşmənlərin təzyiqləri olub, müəyyən vətən torpaqlarımız zəbt olunub. Mənfur düşmənlər tərəfindən zəbt edilən Azərbaycan torpaqlarında Bu cür tarixi hadisələr,müharibələr zamanı əfsuslar olsun ki, əcdadlarımızdan bizlərə yadigar qalan sənət əsərləri də dağıdılır. Bu günümüzə qədər dağılmayan, arxeoloqlar tərəfindən aşkarlanan qədim dövrün məişət nümunələri tədqiqat obyekti olaraq araşdırılmaqdadır.

Şirvanda və Qarabağda aşkarlanmış antropomorf daş heykəllər əsasən Qafqaz Albaniyasının monumental heykəltəraşlığını təmsil edir. Şamaxı rayonu Çıraqlı kəndində tapılmış daş heykəllər qədim dövrə aid yaşam tərzini, xalqın inanclarını, onların heykəltaraşlıq sahəsində bacarıqlarını bizlərə göstərə bilir. Belə ki, daş heykəllərdə üzün cizgiləri aydın təsvir olunmuş və üz ifadələri aydın təsvir edilmişdir. Bu üz ifadlərində sakitlik, müdriklik, mərdlik kimi xüsusiyyətlər realistcə göstərilmişdir. Daş heykəllər əsasən yerli bütpərəst əhalinin səcdə etdiyi kişi bütləridir. Qədim dövrlərdə büdbərəstlik xalqın inancı olduğuna görə daşdan düzəldilmiş büdlərə sitayiş edilirdi. İnandıqları hər bir fikirə və ya varlığa aid daşdan heykəllər yaradır və ona dua edirdilər. (2)

Strabonun məlumatına görə, albanlar yunanca Helios, Zevs və Selena adlandırılan üç allaha sitayiş edirdilər. Antik müəllifin dediyinə görə, albanlar Selenaya üstünlük verirlər. Selena ay ilahəsi sayılırdı. Selena haqqında mifoloji rəvayətlər var. Qafqaz Albaniyasının antik dövrlərində büdpərəstlik dininə sitayiş etdikləri zamanı bir çox allahlara inanc gətirirdilər. Arxeoloqlar tərəfindən, ekspedisiyalar zamanı, bir çox hallarda tapılan daş heykəllər, büdpərəstlik dininə həsr edilərək yaradılırdı.(3)

Azərbaycan bölgələrində aparılan arxeoloji qazıntılar zamanı arxeoloqlar tərəfindən , qafqaz albanlarının inanclarına aid olan daş heykəllər, bütlər aşkarlanır və qədim dövr haqqında daha da geniş təsəvvür yaradır. Bu cür tədqiqatlar, ekspedisyalar nəticəsində Azərbaycanın müxtəlif bölgələrinə təşkil edilmiş arxeoloji qazıntılar zamanı, alban mədəniyyətinin incəliklərini özündə əks etdirən külli miqdarda maddi-mədəniyyət nümunələri aşkarlanmışdır. Aşkarlanan əşyalar sırasında dəyərli materiallardan mövcud ziynət əşyaları, həmçinin sadə materiallardan da ibarət bir sıra bəzək əşyaları aşkarlanır.

Qafqaz Albaniyasının dövrlərinə aid edilən daş heykəllər forma və quruluş etibarı ilə öyrənilərək ekspertlər tərəfindən müəyyənləşdirilmişdir. Belə ki, arxeoloji axtarışlar zamanı aşkarlanan Albaniya dövləti və alban mədəniyyətinin mövcud olduğu dövrlərə aid bu tip abidələr Monqolustandan Rumıniyaya kimi çox geniş bir ərazidə qədim skit, sarmat, sak türk xaqanlığı qəbilələri arasında yayılmışdır. Araşıdırmalar hər zaman türk qədim ən-ənəsinə, soy-kökünə aparıb çıxardır. Qədim türk xalqları bir çox müasir xalqların ulu əcdadlarıdırlar. Buna sübut olaraq bir çox tapılan etnik əşyalar dəlalət edilir.

Qarabağda tapılan heykəllər hörüklü saça malik kişi təsvirləridir. Hələ e. ə. XXIII əsrdə indiki Cənubi Azərbaycan ərazisində məskunlaşmış qəbilələrdən olan lullubeylərdə kişilərin uzun hörük saxlaması onların daş üzərindəki təsvirlərindən məlumdur. Tarixi Manna ərazisində, Arcaq-qala abidəsində aşkar edilmiş daş heykəllər də (e. ə. I minilliyin əvvəli) uzun saçlı kişi fiqurlarıdır. Erkən alban dövrünə aid uzun saçlı kişi heykəlləri Şamaxı rayonunun Çıraqlı kəndi yaxınlığında tapılmışdır. (1)

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*

Bütün bu məlumatlar Qarabağdan və Azərbaycanın digər yerlərindən tapılmış uzun saçlı kişi heykəllərinin Avrasiya çöllərində yaşamış «köçərilərə» yaxın olan Albaniya və habelə Mannanın yerli qəbilələrinə mənsub olduğunu göstərir. (2.)

Qədim alban tarixçisi Moisey Kalankatuklunun “Alban tarixi” kitabına əsasən, bizim eranın V-ci əsrin axırlarında Albaniyada perstorez təriqəti mövcud olub. Ekspedisiya nəticəsində aşkarlanan daş heykəllərin həmin bu dövrün təsiri əsasaında yaradıldığı da düşünülür. (6. s. 4)

Ümumilikdə Qafqaz Albaniyasına məxsus abidələr Azərbaycanın bir çox bölgələrində mövcuddur. Abidələr ətrafında aparılan arxeoloji qazıntlılar zamanı aşkarlanmış, heykəl fiqurları Qafqaz Albaniyası dövlətinin yarandığı dövrdən öncə və sonrakı dövrlərdə də mövcud olmuşdur. Bir çox illərdə aparılan tədqiqatlar, arxeoloji ekspedisiyalar, elmi araşdırma zərurəti ilə görülən qazıntılar zamanı, qədim dövrlərə aid olan bir sıra fiqurlar, əşyalar tapılaraq, qədim dövrlərin öyrənilməsinə yardımçı olurdu. Hal- hazırda da Qarabağ ərazilərində arxeoloji ekspedisiyalar aparılır və qazıntılar nəticəsində Qafqaz Albaniyası dövrünə aid müəyyən əşyalar, tapıntılar aşkarlanaraq tədqiqat vasitələri olaraq öyrənilməkdədir. Qafqaz Albaniyasının antik və ilk orta əsrlərinə aid heykəllərin arxeoloji qazıntılar zamanı tapılaraq araşdırılması zamanı, qədim dövrlərin öyrənilməsi daha da praktik olur. Qafqaz Albaniyası tarixinin izləri araşdırıldıqca Azərbaycanın qədim tarixi daha da bütöv və dərin olur.

Tablo 1.




***Şəkil 1. Albaniya və qonşu ölkələr ( Vİ-VIII əsrin əvvəlləri)- Tərtib edəni: İ.S.Süleymanov.***

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*



***Şəkil 2. Ağdamın rayonunda tapılmış "Balbalı" adlandırılan heykəl.***

Tablo 2.



***Şəkil 3. Ağdamın rayonunda tapılmış "Balbalı" adlandırılan heykəl***

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 521-529



***Şəkil 4. Ağdamın rayonunda tapılmış "Balbalı" adlandırılan heykəl.***



***Şəkil 5. İçərişəhərdəki qədim paqan məbədi yerində sərgilənən Qafqaz Albaniyası dövrünə aid daş bütlər.***

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*

Tablo 3.



***Şəkil 6. «КАМЕННЫЕ ИЗВАЯНИЯ РАННЕСРЕДНЕВЕКОВОЙ АЛБАНИИ » Р.Б Геюшев, М.Дж. Халилов.***




***Şəkil 7. «КАМЕННЫЕ ИЗВАЯНИЯ РАННЕСРЕДНЕВЕКОВОЙ АЛБАНИИ » Р.Б Геюшев, М.Дж. Халилов.***

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*

## Ədəbiyyat :

1. Azərbaycan tarixi/Antik Albaniyanın mədəniyyəti
   https://twojaalfa.pl/alban-mdniyyti/
2. Mübariz Xəlilov ”Qarabağın daş heykəlləri və onların taleyi”.
   http://www.anl.az/el/q/qarabag_5/q-32.htm
3. Selena (Ay) alban məbədinin lokalizəsinə dair. Qafar CƏBİYEV,Azərbaycan Respublikasının Əməkdar jurnalisti, tarix elmləri doktoru
   https://old.xalqqazeti.com/az/news/culture/63417
4. В ОККУПИРОВАННОМ КАРАБАХЕ ОБНАРУЖЕНЫ ДРЕВНИЕ ТЮРКСКИЕ БАЛБАЛЫ ВОЗРАСТОМ ОКОЛО 3000 ЛЕТ
   https://www.rizvanhuseynov.com/2016/10/3000.html
5. ***ЯМНАЯ КУЛЬТУРА***- *Археологическая культура понтийских степей / Из Википедии, свободной энциклопедии*
   HTTPS://WWW.WIKIWAND.COM/EN/PIT_GRAVE_CULTURE
6. «КАМЕННЫЕ ИЗВАЯНИЯ РАННЕСРЕДНЕВЕКОВОЙ АЛБАНИИ » Р.Б Геюшев, М.Дж. Халилов. Nəşr- 1985, с.3-18
7. Халилов М. Дж. Исследование каменных изваяний Карабаха. – В сборнике: Археологические открытия 1982 года. Москва, 1984, с. 438-439.

## ОБРАЗЦЫ ДРЕВНЕЙ И РАННЕСРЕДНЕВЕКОВОЙ СКУЛЬПТУРЫ КАВКАЗСКОЙ АЛБАНИИ.

**Краткое содержание:**

История древней Кавказской Албании, существовавщей на территории Азербайджана, восходит к древним временам. Кавказская Албания была древним государством, охватывавщим всю территорию Азербайджана и включавшим многие части Кавказа, часть современной Грузии и южную часть Дагестана.

За время существования Кавказской Албании было построено множество исторических памятников которые сохранились до наших дней и отражают историю Азербайджана. Древние памятники сохранились до сих пор. При изучении памятников древние статуи найденные во время археологических раскопок в окрестностях, помогают в исследовании античного периода. Различные красочные предметы и скульптурные фигуры периода Кавказской Албании раскрывают много информации в результате научных исследований.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 521-529*

**HASHIMOVA AYNURA**

## ANCIENT AND EARLY MEDIEVAL SCULPTURE EXAMPLES OF CAUCASIAN ALBANIA.

**Summary:**

Historically, the ancient times of Caucasian Albania existed in the territory of Azerbaijan. Caucasian Albania was an ancient state that not only used the territory of Azerbaijan as a whole, but also united many parts of the Caucasus, the territory of modern Georgia and the southern territory of Dagestan.

During the existence of Caucasian Albania, many historical buildings were built, and the rise to this day reflects the history of Azerbaijan. Ancient monuments are still preserved. In the study of the monument, the remains of old things discovered during the archaeological excavations in the surrounding areas? As well as the statue figures, help to study the ancient times. Scientific studies of various types of ornaments and sculptural figures from the period of Caucasian Albania reveal a lot of information.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: professor Vidadi Xəlilov**
**tərəfindən çapa tövsiyə olunmuşdur**